Ədalət.-2019.-22 yanvar.-S.5.



# Xatırlanarkən yaşayanlar

**...Onu hamı sevirdi - uşaqlar da, gənclər də, yaşlı nəsil də... Gözəl danışığı, məzəli sualları, əsrarəngiz ifası ilə əfsunlamışdır televiziya ekranı önündə oturan tamaşaçısını. O zaman proqramı maraqla izləyən azyaşlıların çoxu o dilli-dilavər uşaqların yerində olmağı arzular, gənclər isə sanki möcüzələr yaratmağa çalışan istedadlı aparıcıya bənzəməyə, onun kimi sevilməyə can atardılar. Onu yetərincə tanıyanlar isə tamaşaçını özünə məftun edən bu insanın Türkiyənin gözəl səsli müğənnisi, bəstəkarı, dünyada ölkəsini mahnıları ilə tanıdan Barış Manço olduğundan sevə-sevə danışardılar...**

Bəli, həmin o Barış Manço ki, müğənnilik fəaliyyətilə yanaşı, 1988-ci ildə "7-dən 77-yə" proqramı ilə ekranların qonağı oldu, uzun illər sevilə-sevilə istər Türkiyədə, istərsə də dünyanın müxtəlif ölkələrində, eləcə də Azərbaycanda dinləyici auditoriyası qazandı, sevildi, maraqla baxıldı - öz dəst- xətti, öz professionallığı ilə...

Amma... həyatın gəlişli-gedişli bir yolu, "bu da belə qalmaz" bir deyimi var. Bizə verilən ömrün nə qədər məşəqqətli, müqəddəs olduğunu bildiyimiz halda, nə zamansa əlimizdə olanlari itirəcəyimiz, yüksəkdə olduğumuz halda, həqiqətən bunun fani olduğunu anladığımız bir dönəm də var.



### *Gözlənilməz itki*

Sevənləri onu qəfil itirdi. Barış Mançonun ölümü uşaqdan böyüyə, hər kəsi sarsıtdı. O, heyranlarının qəlbində unuda bilməyəcəkləri, hər zaman xatırlanacaq əbədi heykəl qoyub getdi.

Ölümündən illər keçsə də, sevənləri tərəfindən unudulmadı, hər zaman dinlənildi, xatırlandı Barış Manço. Sağlığında özünün də dediyi kimi, "bir insan nə zaman xatırlanmırsa, onun haqqında danışılmırsa, o zaman ölmüş sayılır". Amma o, ölümündən sonra hər zaman yad edildi, yaşadı, unudulmadı.

### *Xatirəyə dönən illər*

Ölümündən sonra Kadıköy bələdiyyəsi 9 aprel 2010-cu ildə onun vaxtilə Moda ərazisində yaşadığı evini muzeyə çevirib, sevənlərinin ixtiyarına verir. Artıq neçə illərdir ki, Barış Manço sevənlər onunla öz yaşadığı evində "görüşür".



### *Ev-muzeyin tarixi*

...Türkiyədə Kadıköy dedikdə Moda, Moda dedikdə Barış Manço gəlir insanın ağlına. Müğənninin vaxtilə yaşadığı, hal-hazirda isə muzey kimi fəaliyyət göstərdiyi bu evin qəribə bir tarixi varmış...

... Modada Yusif Kamil Paşa küçəsilə muzeyə doğru addımlayarkən, yolboyu beşmərtəbəli binaların sırasında önündə kiçik baxçası olan ikimərtəbəli bir evlə qarşılaşmaq qəribə gəlir insana. Deyilənə görə, vaxtilə Modada evlərinin qarşısında geniş baxçaları olan, geyimləri və yaşama tərzlərilə fərqlənən insanlar yaşamışlar. Belə ki, 1895-1900-cü illər arasında Mr. Dawson burada eyni görünüşdə iki ev tikdirmişdir. Evlərin birində özü, digərində oğlu yaşamışdır. Sonradan oğlu üçün tikdirdiyi ev bir neçə dəfə təmirdən sonra, 1967-ci ildə sökülərək, yerində yaşayış binası tikilmişdir.

Mr. Dawson özünə aid olan evi isə 1930-cu illərdə bir alman ailəsinə sataraq, ölkəsinə qayıtmışdır. Haqqında bəhs edilən bu ev 1965-ci ilə qədər bir neçə dəfə satın alınıb, dəyişdirildikdən sonra, James Whittol tərəfindən alınır, yeni formaya salınır və evin içinin köhnə görünüşü qismən də olsa öz əksini itirir. Uzun illər Whittolun evi kimi tanınan həmin bu tikilini onun qohumları tərəfindən 1984-cü ildə Barış Manço alır, özünəməxsus şəkildə təmir etdirir və illərcə həmin evdə ailəsilə bərabər yaşayır. 2 fevral 1999-cu ildə isə müğənni qəfildən həmin evdə dünyasını dəyişir.

### *Hər addımda görünən "izlər"*

...Muzeyin girişinin tam qapşısında Barış Mançonun Venüs heykəli sevənlərini "qarşılayır" sanki. Kiçik baxçada onun vaxtilə ifa etdiyi mahnıların "personajları" diqqəti cəlb edərkən, salondakı Barış Mançonun heykəlinin "o mənim röyam" dediyi pianosu ilə birgə "qarşılaması" insanı heyrətləndirir...

Otaqları tək-tək dolaşarkən, hər birinin özünəməxsusluğu diqqəti cəlb edir. Addımbaşı acılı-şirinli xatirələr, tarixi yaddaş hökm sürür. Onun həyatı boyu aldığı ödüllər, dünyanın müxtəlif ölkələrindən ona hədiyyə edilən qiymətli əşyalar, müğənninin özəl geyim və aksesuarlari, dəyərli tabloları yer almakdadır.

Çox qəribə bir mənzərə isə otaqların divarlarindakı notları izləməklə, pianonun dillərinin əksi olunmuş pillələrlə evin birinci mərtəbəsinə enib, xatırələrlə dolu bir mənzərə ilə rastlaşmaqdı. Digər maraqlı bir məqam isə uşaq otağında Barış Mançonun uşaqlarla körpü qurmağa çalışdığı "7-dən 77-yə" verilişinin canlı yayınlanması idi...

Evin qış və yay ayları üçün nəzərdə tutulan hissəsində Barış Mançonun



birgə ifa etdiyi ansamblının musiqi alətləri yer alır. Vaxtilə o, məşqlərini ansamblı ilə bərabər burda hazırlayarmışlar.

Xüsusilə qeyd etmək lazımdır ki, Barış Mançonun ev muzeyində əşyaların toplanmasında və təşkilində onun həyat yoldaşı Lalə Mançonun, övladları Doğukan Hazar və Batıkan Zorbey Mançoların da əməyi vardır. Bu, onlarin Barış Manço sevənlərinə böyük diqqət və qayğısıdır.

### *Unutsaq unudularıq*

Xalqı, onu sevənləri üçün mücadilə edənlər heç zaman unudulmur. Türkiyənin, bütün dünyanın sevdiyi Barış Manço kimi.



Ölümündən 20 il keçsə də, bu gün onun musiqiləri eyni sevgilə dinlənilir, xatirəsi yad edilir. Ev muzeyində olarkən, ardı-arası kəsilməyən ziyarətçilərin onu sevdiyinin bir daha şahidi olursan. Xatirəsi təkcə ev muzeyində deyil, İstanbulun müxtəlif yerlərində də yad edilir. Belə ki İstanbul, Beylikdüzü "Miqros" Ticarət mərkəzinin rəhbərliyi Barış Mançonun ölümünün 20-ci ildönümünə rəğmən təşkil etdiyi şəxsi sərgisini onun sevənlərinin ixtiyarına verib.

Sərgidə müğənninin konsert proqramlarında geyindiyi kostyumları, istifadə etdiyi bilərziyi, kəməri, müxtəlif illərdə çəkdirdiyi şəkilləri, ömrünün son illərində ifa etdiyi gitarası, "7-dən 77-yə" proqramında istifadə etdiyi üzüyü, 1980-ci ildə aldığı "Altun kələbək" ödülü, video kassetləri, foto aparatı, gənclik illərində çəkdirdiyi şəkilləri nümayiş etdirilir. Bu, bir daha sübut edir ki, özünün təbirincə desək "insan xatırlanirsa, deməli, ölmür".

**Əsərləri bolqar, yunan, fransiz, ingilis, yapon və başqa ölkələrin dilinə şevrilib səsləndirilən, bəstələri, proqramları və əsrarəngiz səsilə tamaşaçısının qəlbində iz buraxan Barış Manço türk musiqisində, eləcə də dünyanın hər bir yerində özünə unudulmayacaq bir yuva qurdurdu - ailəsinin, övladlarının, türk xalqının və bir də heç vaxt onu unutmayacaq sevənlərinin qəlbində.**

**Nəcibə ƏZİZQIZI**
**İstanbul**